AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# EMAL MÜƏSSİSƏLƏRİNDƏ İXRAC YÖNÜMLÜ MƏHSUL İSTEHSALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5311.01-Müəssisələrin təşkili və idarə olunması

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Əli Güloğlan oğlu Bağırzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Aqrar sahənin və sənayenin iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor, əməkdar kənd təsərrüfat işçisi **İslam Hacı oğlu İbrahimov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor **İlham Alıcı oğlu Aslanzadə** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent **Fərid Fikrət oğlu Babayev** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent **Famil Vəli oğlu Rüstəmov** |

Azərbaycan Respublikasının prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ____________ iqtisad elmləri doktoru, professor **Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru **Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, dosent **Möhübbət Musa oğlu Hüseynov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dərinləşməkdə olan qloballaşma prosesləri inkişafın yeni çağırışlarını və təhdidlərini də bərabərində gətirmişdir. Bu baxımdan ölkəmiz üçün ən mühüm qlobal çağırışlardan biri milli iqtisadiyyatın, eləcə də onun strateji əhəmiyyətli sahələrinin dünya təsərrüfatçılıq sisteminə səmərəli inteqrasiya olunması ilə bağlıdır.

Məlum olduğu kimi, qloballaşma prosesi beynəlxalq əmək bölgüsündə özünəməxsus inkişaf meylləri də doğurmaqdadır. Bu meyl ilk növbədə post sənaye cəmiyyətinin formalaşmasının əsas vektorlarının təsiri altında özünü biruzə verir. Belə ki, post sənaye cəmiyyətinin formalaşması iqtisadiyyatda həm ənənəvi, həm sənaye, həm də xidmət sektorlarının zəruri elementlərinin sintezinə əsaslanır. Məhz bütün bunlar ölkədə qloballaşma prosesinin çağırışları əsasında iqtisadi inkişafın yeni vektorlarının təsərrüfat dövriyyəsinə daxil edilməsini, əslində qloballaşmanın yeni təbəddülatlarının reallaşdırılmasını obyektiv zərurətə çevirir.

Müasir reallıqlardan çıxış etsək tamamilə haqlı olaraq belə qənaətə gəlmək mümkündür ki, qeyri-neft sənayesinin inkişafı neft istehsal edən və ixrac edən ölkələr üçün həm qloballaşmanın ən mühüm çağırışına, həm də qaçılmaz labüdlüyə çevrilməkdədir. Bütün bunlar həm də qloballaşma proseslərinin dərinləşməsi fonunda bərpa olunan enerji mənbələrindən istifadə edilməsinin daha az vəsait tutumlu olması ilə izah olunur. Bu baxımdan milli iqtisadiyyatın əsasını yanacaq-enerji resurslarının istehsalı və bu məhsulun satışından daxilolmalar təşkil edən ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında qeyri-neft sektorunun mühüm strateji əhəmiyyət kəsb etməsi danılmaz reallıqlardandır. Ölkəmizdə qeyri-neft sektorunun ən mühüm prioritet sahələrindən biri də emal sənayesidir. Qloballaşmanın müasir çağırışları fonunda emal sənayesinin ixrac yönümlülüyünün artırılması mühüm strateji əhəmiyyət kəsb edir. Emal sənayesində məhsul istehsalının ixrac yönümlülüyünün artırılması strateji əhəmiyyəti ilk növbədə emal məhsullarının idxalı əvəz etməsi baxımından prioritetlik kəsb etməsi, karbohidrogen resurslarının ixracından asılılığın aşağı salınmasında rolu, ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyəti, alternativ

mənbələr hesabına dövlət büdcəsinə valyuta daxil olması, ölkədə yerli aqrar məhsulların rəqabətə davamlılığının yüksəldilməsi ilə səciyyələnir.

Hazırda ölkə iqtisadiyyatının qlobal çağırışlara uyğunlaşmasını təmin etmək məqsədilə dövlət tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" qeyri-neft sektorunun rəqabətə davamlılığının və sahələrin ixrac yönümlülüyünün yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edən proqram sənədi kimi qəbul olunmuşdur.[1] Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin 02.02.2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də sənayenin qlobal perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm strateji əhəmiyyət kəsb edir.[2]

Dünyadakı siyasi və iqtisadi proseslərə, qlobal bazarlarda konyuktur dalğalanmalarına çevik reaksiya göstərilməsi "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" in mühüm hədəflərindəndir. Bu proqram sənədində qeyd edilir ki, *"Gələcəkdə idxaldan asılılığı minimuma endirmək və yerli məhsullarla özünü təminetmə səviyyəsini daha da yüksəltmək məqsədilə rəqabətqabiliyyətli qeyri-neft sənayesi məhsullarının istehsalı və ixracının təşviqi sahəsində Azərbaycan höküməti qanunvericilik bazasında bir sıra mühüm dəyişikliklər həyata keçimişdir"*. "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18.01.2016-cı il tarixli sərəncamı və "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 01.03.2016-cı il tarixli Fərmanı ölkədə ixracının şaxələndirilməsi və rəqabət qabiliyyətinin artırılmasına təkan verəcəkdir.[3]

---

[1] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi // – Bakı: 6 dekabr 2016-cı il. – 177 s.

[2] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. // – Bakı: 2021.

[3] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi // – Bakı: 6 dekabr 2016-cı il. s.25

Xüsusilə post neft erasında və aşağı neft qiymətləri dövründə emal sənayesinin inkişafı və onun ixrac yönümlülüyünün artırılması bütövlükdə milli iqtisadiyyatın həm neft və karbohidrogen resurslarından asılılığının neytrallaşdırılmasında, həm də qeyri-neft sektorunun inkişafı fonunda davamlı iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynaya bilər.

Emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması klasterial inkişafın təmin edilməsi və region-məhsul-dəyər zəncirində komponentlərin düzgün qurulmasından da bilavasitə asılıdır. Qeyd edilənlərin aqrar sahədə geniş təkrar istehsal prosesinin həyata keçirilməsi baxımından optimal həlli yollarının tapılması aktual problem kimi səciyyələnməkdədir. Bir sıra hallarda emal sənayesinin istehsal gücləri xammal bazasına adekvat deyil və kənd təsərrüfatında məhsul istehsalı prosesində hələ də ekstensiv amillərin təsir gücü yüksəkdir. İnfrastruktur sisteminin dəyişən reallıqlara uyğunlaşdırılması, bazarlara rəqabətə davamlı aqrar emal məhsullarının yeridilməsində intensivliyin qorunub saxlanılması və aqrar sahənin innovativ rəqəmsal texnologiyalardan istifadə sahələrində gerilik mövcuddur. Bütün bunlar ixrac yönümlü emal məhsullarının istehsalının artırılmasına mənfi təsir göstərir.

Emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması sahəsində həllini gözləyən ən vacib problemlərdən biri də mülkiyyət mənsubiyyətindən asılı olmayaraq emal müəssisələri ilə kənd təsərrüfatı əmtəə istehsalçıları arasında inteqrasiya münasibətlərinin qurulmasında iqtisadi maraq və mənafelərin qarşılıqlı şəkildə əlaqələndirilməməsi və emal sənayesi müəssisələrinin xarici xammaldan istifadəyə üstünlük vermələri ilə bağlıdır. Problemlə məhz bu aspektdən yanaşdıqda "Emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması istiqamətləri" mövzusunda dissertasiya tədqiqatının aparılması obyektiv zərurətdən irəli gəlir.

Azərbaycan Respublikasının iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, İ.H.İbrahimov, N.M.İmanov, E.A.Quliyev, B.X.Ataşov, T.N.Əliyev, F.Ə.Qənbərov, E.R.İbrahimov, G.Z.Yüzbaşıyeva, M.M.Hüseynov, Ə.C.Muradov, N.C.Qafarov, S.İ.Vəliyeva, A.F.Abbasov, M.C.Hüseynov, R.T.Həsənov, H.A.Xəlilov, V.H.Abbasov, A.Ş.Şəkərəliyev, R.Ə.Balayev,

A.E.Quliyeva və xarici ölkə alimlərindən V.A.Tixonov, Q.P. Juravleva, V.İ.Truxaçev, C.Stiqlitz, E.S.Oqloblin, A.İ.Abalkin, C.Neysbit, N.P.Borisenko, P.A.İqnatovski və başqaları əsərlərində emal sənayesinin inkişafının, emal sənayesində, o cümlədən aqrar sahədə xarici ticarət əlaqələrin formalaşdırılmasının nəzəri məsələləri və ümumi problemlərinin tədqiq olunmasına geniş yer vermişlər. Bu sahədə yazılmış elmi əsərlərin əhəmiyyətini bir daha təsdiqləyərək, qeyd etmək lazımdır ki, hazırda qloballaşma proseslərinin müasir çağırışları fonunda emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması sahəsində problemlər kompleks tədqiq edilməmişdir. Bütünlükdə xarici iqtisadi əlaqələr, aqrar sahənin xarici iqtisadi və ticarət əlaqələrinin təkmilləşdirilməsi ilə bağlı elmi-tədqiqat işləri yerinə yetirilsə də qloballaşma prosesinin müasir çağırışları fonunda emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması istiqamətində sistemli tədqiqatlar məhdud xarakter daşıyır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kənd təsərrüfatı məhsulları istehsal və emal edən, onlara xidmət göstərən sahibkarlıq subyektləridir. Tədqiqatın predmetini rəqabət və ixrac qabiliyyətli emal məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı münasibətlər təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi aqrar-emal müəssisələrində ixrac yönümlü istehsal potensialının formalaşmasının elmi-nəzəri əsaslarını tədqiq etməkdən, ixrac yönümlü emal məhsulları istehsalının mövcud vəziyyətini və iqtisadi inkişaf meyllərini təhlil etməkdən, ən nəhayət emal müəssisələrində ixrac yönümlü istehsalın artırılmasının elmi cəhətdən əsaslandırılmış iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinə dair praktik əhəmiyyətli təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Tədqiqatın vəzifələrinə aşağıdakılar şamil edilir:

- ixrac yönümlü istehsalın artırılmasının zəruriliyinin əsaslandırılması və onun elmi əsaslarının tədqiq edilməsi;
- istehsalın və emalın həcminin artırılmasının spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- ixrac yönümlü istehsalın artırılmasında beynəlxalq təcrübənin araşdırılması;

- emal müəssisələrində istehsal edilən məhsulun ixracının mövcud vəziyyətinin təhlili;

- ixrac yönümlü məhsulun artırılması ehtiyatlarının müəyyənləşdirilməsi;

- istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması və ixracın stimullaşdırılmasının mövcud vəziyyətinin təhlili;

- emal müəssisələrində məhsul istehsalının artırılmasına investisiya qoyuluşlarının təsirinin müəyyənləşdirilməsi;

- emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılmasının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;

- ixrac yönümlü məhsul istehsalının artırılmasının qiymət mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı iqtisadi - statistik, ümumiləşdirmə, müqayisə, təhlil metodlarından istifadə edərək emal məhsullarının ixrac yönümlülüyünün yüksəldilməsi istiqamətləri araşdırılmışdır. İqtisadçı alimlərin emal məhsullarının ixracının inkişaf problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları və digər hüquqi-normativ sənədlər tədqiqatın metodoloji əsasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin müdafiəyə çıxarılan əsas müddəalarına aşağıdakıları şamil etmək olar:

- qeyri-neft sektorunda, o cümlədən emal sənayesində istehsal edilən məhsulun ixracının artırılması qloballaşmanın müasir çağırışları zəmnində problemi tədqiqat predmetinə çevirmişdir;

- ixrac yönümlü məhsul istehsalının artırılması dövlət büdcəsinə alternativ vəsait daxil olması imkanlarının təmin edilməsi zərurətindən yaranmışdır;

- emal sənayesinin ixraca yönümlülüyünün yüksəldilməsi qloballaşmanın yeni çağırışları fonunda özünü daha çox labüdlüyə çevirir;

- ixrac yönümlü emal məhsullarının artırılması rəqabət qabiliyyətli məhsul istehsalının həcminin yüksəldilməsi ehtiyaclarını

daha qabarıq şəkildə ortaya qoyur;

- emal sənayesinin ixrac yönümlülüyünün yüksəldilməsinə təsir edən amillərdən biri kimi istehsalın modernləşməsinə daha çox ehtiyac yaranmışdır;

- emal sənayesinin ixrac yönümlülüyünün artırılması milli iqtisadiyyatın və ixracın şaxələndirilməsi fonunda tədqiqatlar aparmağa ehtiyac yaratmışdır;

- emal sənayesinin ixrac yönümlülüyünün artırılmasına idxalın əvəzlənməsi kontekstindən yanaşılması zərurəti meydana çıxmışdır;

- ixrac yönümlü emal sənayesi məhsulları istehsalının artırılmasında yerli kənd təsərrüfatı xammalından daha səmərəli istifadə edilməsi zərurətini ölkənin ərzaq təhlükəsizliyi baxımından nəzərdən keçirilməsini zərurətə çevirir.

**Tədqiqatın elmi yeniliyinə** aşağdakıları şamil etmək olar:

- ixrac yönümlü emal məhsullarının istehsalının artırılmasının ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, yerli əmtəə istehsalçılarının gəlirlərinin yüksəldilməsində, əhali məşğulluğunun təmin edilməsində və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsindəki rolu müəyyənləşdirilmişdir;

- emal sənayesinin ixrac yönümlülüyünün artırılmasına təsir edən iqtisadi amillər qlobal çağırışlar və təhdidlər fonunda araşdırılaraq qeyri-neft sektorunun inkişafında rolu müəyyənləşdirilmişdir;

- emal sənayesi məhsullarının ixracında invetisiya, kredit, qiymət mexanizmləri vasitəsi ilə stimullaşdırılmanın və rəqabət qabiliyyətlinin artırılmasının rolu müəyyənləşdirilmişdir;

- regionlarda istehsalın yerləşməsi və ixtisaslaşması nəzərə alınmaqla emal müəssisələrinin ixrac yönümlülüyünün artırılması imkanları və istifadə edilməmiş ehtiyatlar müəyyənləşdirilmişdir;

- emal sənayesi məhsulları istehsalının iqtisadi səmərəliliyinin artırılmasında yerli kənd təsərrüfatı xammalının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətləri əsaslandırılmışdır;

- emal sənayesinin və kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi ehtiyatları, kredit və qiymət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;

- kapital resursları bazarına çıxış imkanlarının artırılmasının

emal müəssisələrinin ixrac yönümlülüyünün yüksəldilməsinə təsiri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Əsaslandırılmış təkliflər respublikamızda rəqabət və ixrac qabiliyyətli emal sənayesi məhsulları istehsalının stimullaşdırılmasına, yeni emal müəssisələrinin və əmtəəlik məhsul istehsal edən kooperativlərin yaradılmasına, eyni zamanda aqrar sahənin davamlı inkişafına təkan verə bilər. Hazırlanmış tövsiyə və təkliflərdən ixrac və rəqabət qabiliyyətli emal sənayesi məhsulları istehsalının stimullaşdırılmasına dair müvafiq dövlət proqramlarının hazırlanmasında da istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəzəri metodoloji və əməli əhəmiyyətli müddəaları, işlənib hazırlanan təklif və tövsiyələri respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslarda məruzə edilmiş, tezis və konfrans materialları kimi çap olunmuşdur.

Dissertasiya işinin əsas nəzəri müddəaları, nəticə və təklifləri həmçinin Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda 13 elmi məqalə və tezis, o cümlədən 1 məqalə və 1 tezis xaricdə çap olunmuşdur. Tədqiqatın nəticələri 22 aprel 2022-ci il 180 №-li məktubla Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən istifadə üçün qəbul olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsil, nəticə və 136 adda istifadə olunmuş ədəbiyyat (mənbə) siyahısından ibarətdir. Dissertasiya işi 1,5 interval kompüter yazısında 162 səhifəni əhatə etməklə özündə 19 cədvəl, 3 sxem və 1 qrafik birləşdirir. Dissertasiya işinin Giriş hissəsində 13 991 şərti işarə; I Fəsildə 84 896 şərti işarə; II Fəsildə 70 217 şərti işarə; III fəsildə 84 197 şərti işarə; Nəticə hissəsində 10 443 şərti işarə öz əksini tapmışdır. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər və istifadə edilmiş ədəbiyyat istisna olmaqla 263 744 işarədir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində işin mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilat və işin həcmi barədə məlumat təqdim edilir.

Dissertasiya işinin **I fəsli "İxrac yönümlü istehsal potensialının formalaşmasının elmi-nəzəri əsasları" adlanır.** Bu fəsildə ixrac yönümlü istehsalın artırılmasının zəruriliyi və onun elmi əsasları araşdırılır, emal sənayesində ixrac yönümlü istehsalın artırılması xüsusiyyətləri və ixracın artırılmasında beynəlxalq təcrübə tədqiq edilir. Burada ixrac yönümlülüyün yüksəldilməsi ilə bağlı istər xarici ölkə alimlərinin iqtisadiyyatın və xarici ticarət əlaqələrin inkişafına dair problemlərin tədqiqi ilə bağlı apardıqları araşdırmaları ön plana çəkilir, azad ticarətin inkişafının səciyyəvi cəhətlərini, onun qloballaşma prosesində iqtisadi azadlıqların reallaşdırılması baxımından rolu xüsusi qeyd edilir. Hal-hazırda hər bir ölkənin xarici ticarət dövriyyəsinə bütövlükdə "ixrac-idxal" əməliyyatlarının məcmusu kimi baxılır. Bu səbəbdən ölkələr çalışırlar ki, daha çox məhsul ixrac etsin və bu yolla ölkəyə daha çox valyutanın gəlməsinə imkan yaransın.

Hazırda iqtisadiyyatın müxtəlif sektorlarında, o cümlədən emal sənayesində istehsal edilən məhsulun ixrac yönümlülüyünün artırılması ölkənin iqtisadi təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. İxrac potensialından səmərəli istifadə edilməsi xüsusilə rəqabət qabiliyyətli məhsulların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi hər bir ölkə üçün mühüm strateji əhəmiyyətə malikdir.

Dünyanın inkişaf etmiş ölkələrində bu və ya digər sahənin ixrac yönümlülüyünün yüksəldilməsi məqsədilə davamlı olaraq proteksionist tədbirlərin gerçəkləşdirilməsinə də zaman-zaman üstünlük verilir. Nobel mükafatı laureatı C. Stiqlitz proteksionist tədbirlərin həyata keçirilməsinin sənayenin inkişafına adekvat olmadığı səbəbindən məhdudlaşdırılmasını, eyni zamanda ona əks

olan liberallaşdırma siyasətinin hissə-hissə gerçəkləşdirilməsinin vacibliyini əsaslandırmışdır. II Dünya müharibəsindən sonrakı dövrlərdə Şərqi Asiya ölkələri və Yaponiyanın iqtisadi inkişaf proseslərini təhlil edən görkəmli alim qeyd edir ki, *"bu regionda Yaponiyanın sürətli inkişaf etməsinin ardınca ilk öncə Cənubi Koreya, Honqkonq, Tayvan, Sinqapur, daha sonra İndoneziya, Tayland, Malayziya və nəhayət Çin sabit iqtisadi inkişafa nail olmuşdur. Bu proseslərdə xüsusilə də Yaponiya və Cənubi Koreya sənayesinin inkişafı modelləri məhsuldar və effektivli olmuşdur".*[4]

Bu meylin yaranmasının ən mühüm səbəblərindən biri də ondan ibarətdir ki, adı çəkilən ölkələr xüsusilə sənayenin ixrac yönümlüyünün inkişaf etdirmək məqsədilə azad rəqabət və xarici investisiyaların cəlb edilməsinə daha çox üstünlük vermişlər.

Tədqiqatlar göstərir ki, uzun müddət Azərbaycanda xarici iqtisadi əlaqələrin yaradılmasında sənaye sahələrinin inkişafına üstünlük verilmişdir, lakin, sənaye sahələri üçün, xüsusən emal sənayesi üçün xammal bazası olan kənd təsərrüfatının inkişafına əlaqəli şəkildə baxılmamışdır. Taxıl, pambıq, tütün, tərəvəz və meyvənin ixrac üçün ixtisaslaşması və bu sahələrin müasir texnoloji səviyyədə inkişafına, onunla əlaqədar infrastrukturun yaradılmasına beynəlxalq standartlar səviyyəsində baxılmamışdır. Ölkənin idxal-ixrac siyasəti cari tələbatın ödənilməsinə və hazırki istehsalı stabil saxlanılmasına yönəldilmiş, ixrac yönümlü istehsalın artırılmasına və səmərəliliyinin yüksəldilməsinə xidmət etməmişdir. Buna görə də idxalın həcmində əsas yeri istehlak malları tutmuşdur və bu meyl hələ də qalmaqdadır.

Doğrudur, proteksionist siyasətin daxili bazarın qorunması, xüsusilə dempinq təzahürlərindən müdafiə edilməsi, iqtisadiyyatın gənc sahələrinin qorunması baxımından mühüm əhəmiyyəti vardır. Lakin, bütün bunlara baxmayaraq dempinq siyasəti azad rəqabət, xarici investisiyaların cəlb olunması baxımından məhdudlaşdırıcı xüsusiyyətlər kəsb etməsini də gözardı etmək olmaz. Məhz Şərqi Asiya ölkələrində, o cümlədən Asiyanın yeni sənaye ölkələrində xarici kapitalın cəlb edilməsi, azad rəqabət mühitinin

[4] Stiqlitz, C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar / C.E.Stiqlitz – Bakı-2004. s. 81-84. (338 s.)

dəstəklənməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsinin nəticəsidir ki, ixrac yönümlü fəaliyyət həyata keçirilir və qlobal bazarlara elm tutumlu məhsullar ixrac edirlər.

Emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması istiqamətində tədbirlər gerçəkləşdirilməsi dövlət və özəl sektorun qarşılıqlı tərəfdaşlığı əsasında mümkün ola bilər. Fikrimizcə, bu zaman dövlət proteksionist və liberal siyasəti bir arada reallaşdırılmalı, həm azad rəqabəti, xarici kapitalın aqrar-emal sənayesinə cəlb edilməsini stimullaşdırmalı, eyni zamanda professor İ.H. İbrahimovun qeyd etdiyi kimi daxili bazarı xaricdən keyfiyyətsiz məhsulların idxalından qorunmalıdır.[5]

Qeyri-neft sektorunun mühüm tərkib hissəsi kimi emal sənayesində ixrac yönümlü məhsul istehsalının artırılması dövlət büdcəsinə alternativ mənbələrdən valyuta daxil olması imkanlarını artırır. Bunun üçün isə ilk növbədə qeyri-neft sektorunda, o cümlədən emal sənayesində ixrac potensialını formalaşdıran amillərə diqqət yetirmək vacibdir. Qeyri-neft sektorunda ixrac potensialının formalaşdıran amillər aşağıdakı sxemdə öz əksini tapmışdır.




**Sxem 1. Qeyri-neft sektorunda ixrac potensialını formalaşdıran amillər.** *(sxem müəllif tərəfindən tərtib edilmişdir)*

---

5 İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. / İ.H.İbrahimov – Bakı, 2016. s.173. (655 s).

Sxem 1-dən göründüyü kimi təsnifatda verilmiş amillərin hər biri dövlətlərin iqtisadi siyasətlərində bu və başqa formada iqtisadi siyasət mexanizmləri və iqtisadiyyatın dövlət tənzimləmələri qismində çıxış edirlər.

Fikrimizcə, aparılmış araşdırmalar qeyri-neft sektorunun ixrac potensialının artırılması ilə bağlı mühüm amillər kimi çıxış edən şərtlərin bir qrupunu fərqləndirməyə imkan verir:

- iqtisadiyyatın davamlı inkişafı və sahələrin diversifikasilaşdırılması problemlərinə sistemli yanaşmanı, prioritet iqtisadi siyasət mexanizmlərin və strateji hədəflərin müəyyənləşdirilməsini zəruri edir;
- bazar iqtisadiyyatının inkişafının intensivləşdirilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi, xarici ticarətin səmərəliliyinin yüksəldilməsinin prioritet metodlarının səmərəli modellərinin hazırlanması və reallaşdırılması;
- ixrac potensialına töhfələr verəcək sahələrin araşdırılması və onlardan səmərəli istifadə mexanizmlərinin müəyyən olunması;
- ixrac potensialının artırılmasına imkan verəcək iqtisadi-təsərrüfat sisteminin təşkilini intensivləşdirən və asanlaşdıran tənzimləmə mexanizmlərinin qanunvericilik bazasının təkmilləşdirilməsi, normativlərin və ixrac qaydalarının hazırlanması;
- iqtisadiyyatın strateji inkişaf prioritetlərinə uyğun qeyri-neft sektorunun ixrac potensialının obyektiv qiymətləndirilməsi və onun həyata keçirilməsi mexanizmlərinin optimallaşdırılması;
- qeyri-neft sektorunun ixrac imkanları üzrə dünya bazarlarında daha intensiv hərəkət imkanları olan mal və məhsulların çeşidlərinin müəyyən olunması və onların ixrac potensialı məcmusuna daxil olunması mexanizmlərinin tənzimlənməsi və s.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda göstərir ki, "Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması nəinki ərzağa olan yerli tələbatı ödəyəcək, hətta region və dünya bazarlarına ixrac imkanlarını artıracaqdır".[6]

[6] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi // – Bakı: 6 dekabr 2016-cı il. s.48 (177 s.)

Qeyd olunanlarla yanaşı iqtisadi artımda ixracyönümlü məhsul istehsalının stimullaşdırılması və artırılması ön plana çəkilməlidir. Bu mənada professor G.Ə.Gənciyevin aşağıdakı fikirləri ilə razılaşırıq:

- emal sənayesi ixracının stimullaşdırılması;
- ixracın kreditləşdirilməsində dövlət və kommersiya banklarının birgə iştirakı;
- yerli ixracatçıları kreditləşdirilməsini həyata keçirən banklara dövlət qarantının verilməsi;
- ixracçıların kommersiya banklarına kreditlərinə görə ödədiyi faizin bir qisminin dövlət tərəfindən ödənilməsi;
- ixracçılara beynəlxalq nəqliyyat tarifləri ilə milli nəqliyyat tarifləri arasındakı fərqlərin ödənilməsi;
- ixracın dövlət tərəfindən sığortalanması;
- ixrac kreditlərinin dövlət tərəfindən sığortalanması;
- ixracçı müəssisələrin əsas fondlara görə öhdəlikləri və əmlak vergisinin ləğvi;
- ixracçı müəssisələrə əlavə imtiyazların verilməsi (qaz, su, elektrik və s. tariflərdə güzəştlərin edilməsi) və s.[7]

Araşdırmalar göstərir ki, respublikamızda ixrac yönümlü kənd təsərrüfatı və emal məhsulları istehsalının artırılması və emal sənayesinin davamlı inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlərin reallaşdırılması zəruridir:

- daxili potensial hesabına daxili kənd təsərrüfatı xammalından istifadə etməklə emal sənayesi məhsullarının istehsalının və emalının artırılması;
- ixracyönümlü məhsul istehsalının inkişaf etdirilməsi (nadir bitki və meyvələrin, zərif lifli pambıq növlərinin, bostan və tərəvəz bitkilərinin, üzüm, barama, tütün, yun, şərab və s. kimi yüksək gəlirli məhsulların istehsalının artırılması);
- idxalı əvəzləyən məhsul istehsalının artırılması tədbirlərinin təşkili;
- rəqabətqabiliyyətli məhsul istehsalının artırılması məqsədilə istehsalın texnoloji və texniki səviyyəsinin beynəlxalq standartlar səviyyəsinə qaldırılması (məhsulların yetişdirilməsi, toplanılması, emalı, qablaşdırılması və saxlanılması daxil olmaqla bütün

---

[7] Beynəlxalq iqtisadi münasibətlər: dərslik / G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, A.M.Əliyev [və b.] – Bakı: Azərbaycan Kooperasiya Universiteti, – 2010. s.154-155 ( 396 s.)

mərhələlər üzrə);

- xarici ticarət əlaqələri əsasında beynəlxalq əmək bölgüsü, kooperasiya və iqtisadi inteqrasiya əlaqələrinin imkanlarından maksimum istifadə edilməsi (müştərək və xarici müəssisələrin yaradılması, azad iqtisadi zonalar yaradılması, sazişlər əsasında əməkdaşlıq və s.);

- emal sənayesinə xarici sərmayə qoyuluşlarının stimullaşdırılması və s.

Dissertasiyada emal sənayesində məhsul istehsalının artırılması xüsusiyətləri araşdırılır. İxtisaslaşma və məhsulların mübadiləsini şərtləndirən xüsusiyyətlər 9 qrupda təsnifləşdirilir. Bu xüsusiyyətlər istehsal və emal prosesini təşkil edərkən daxili və xarici mühit amilləri ilə fərqləndirilir, onların işğaldan azad edilmiş ərazilərdə nəzərə alınması əsaslandırılır.

İxrac yönümlü məhsul istehsalının artırılmasında beynəlxalq təcrübəyə geniş yer verilir. Bununla əlaqədar ABŞ-da ixracatçılara və investorlara verilən stimullar, Çində, Cənubi Koreya, Almaniya, Türkiyə, Niderland və digər ölkələrdə ixrac yönümlü məhsul istehsalı araşdırılır və ölkəmiz üçün müsbət təcrübələrdən yararlanmaq istiqamətləri barədə təkliflər verilir.

Dissertasiya işinin **II fəsli "İxrac yönümlü istehsalın müasir vəziyyəti və iqtisadi inkişaf meyllərinin təhlili"** adlanır. Burada emal məhsullarının ixrac vəziyyəti, ixracın artırılması ehtiyatları, emal sənayesində məhsulun rəqabət qabiliyyətinin artırılması və ixracın stimullaşdırılması təhlil edilir, qiymətləndirilir. Dissertasiyada qeyd edilir ki, yeni təsərrüfatçılıq şəraitində emal müəssisələrinin mövcud istehsal imkanlarından istifadənin iqtisadi səmərəliliyinin artırılması hər şeydən öncə mövcud potensialdan istifadənin nəzəri və metodoloji tərəflərinin yenidən işlənməsini və tədqiq olunmasını zəruri edir. Çünki, bu sahədə yeni münasibətlər planlı təsərrüfatçılıq sistemində fərqlənir və bazar iqtisadiyyatı prinsiplərinə uyğun gələn iqtisadi mexanizm mütərəqqi üsullar vasitəsi ilə elmi əsaslandırılmış həllər tələb edir. Yeni istehsal münasibətlərinin formalaşması, torpağın və əmlakın özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün iqtisadi və hüquqi bazanın yaradılması, müxtəlif təsərrüfatçılıq formalarının inkişaf etdirilməsi, bu sahənin fəaliyyətinə əlverişli şərait yaratmasına baxmayaraq hələ də müəyyən problemlər qalmaqdadır və müasir tələblər uyğun olaraq təşkil olunmasını tələb edir.

Emal sənayesinin ixrac yönümlülüyünün aşağı olmasının ən mühüm səbəblərindən biri də kənd təsərrüfatı ilə emal müəssisələri arasında inteqrasiya münasibətlərinin müasir dövrün tələblərinə cavab verməməsilə bağlıdır. Emal sənayesində məhsul istehsalının dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 1.**

**Emal sənayesində əsas növ məhsulların istehsalı**

| **Məhsulların adı** | **2010** | **2015** | **2021** | **2022** | **2023** | **2023-cü ildə 2015-ci ilə nisbətən fərq(%, dəfə)** |
|---|---|---|---|---|---|---|
| Kolbasa məmulatları, min ton | 2,1 | 5,0 | 26,7 | 29,7 | 30,2 | **+6,04 dəfə** |
| Kərə yağı, min ton | 20,9 | 23,9 | 27,0 | 25,9 | 27,0 | **+13,0** |
| Pendir və kəsmik, min ton | 43,3 | 48,5 | 59,3 | 57,9 | 55,1 | **+13,6** |
| Buğda unu, min ton | 1320,0 | 1507,0 | 1498,2 | 1365,1 | 1328,0 | **-11,9** |
| Çörək və çörək-bulka məmulatları, min ton | 1162,0 | 1198,0 | 1278,1 | 1245,9 | 1195,8 | **-0,2** |
| Qatılaşdırılmış, şirinləşdirilməmiş süd, ton | 61,1 | 992,3 | 2011,2 | 3901,7 | 11155,1 | **+11,2 dəfə** |
| Yağlılıq dərəcəsi 6-29 faiz olan qaymaq, ton | 4230,0 | 5132,0 | 9126,0 | 8192,0 | 9047,5 | **+76,3** |
| Bitki yağları, min ton | 88,7 | 106,7 | 72,9 | 67,9 | 56,4 | **-47,1** |
| Meyvə və tərəvəz konserviləri, min ton | 137,1 | 147,9 | 216,1 | 237,8 | 234,4 | **+58,5** |
| Nərə kürüsü, ton | 0,3 | 0,1 | 0,6 | 0,9 | 0,8 | **+8 dəfə** |
| Qənnadı məmulatları, min ton | 43,5 | 55,9 | 88,0 | 77,9 | 89,2 | **+59,6** |
| Duz, min ton | 11,6 | 39,5 | 71,5 | 77,4 | 73,3 | **+85,6** |
| Yodlaşdırılmış duz, min ton | 8,5 | 36,3 | 69,5 | 75,5 | 71,3 | **+96,4** |
| Dondurma, min ton | 0,4 | 1,0 | 3,4 | 5,7 | 5,1 | **+5,1 dəfə** |
| Marqarin, min ton | 20,2 | 24,9 | 47,6 | 59,4 | 47,0 | **+88,8** |
| Makaron məmulatı, min ton | 13,0 | 9,2 | 20,0 | 26,3 | 25,8 | **+180,4** |
| Qənd və şəkər, min ton | 335,5 | 335,6 | 340,6 | 379,9 | 287,1 | **-14,5** |
| Yem, min ton | 4,8 | 12,8 | 192,9 | 187,1 | 165,2 | **+12,9 dəfə** |
| Çay, min ton | 10,9 | 6,2 | 10,2 | 12,0 | 11,6 | **+87,1** |
| Araq, min dkl | 884,9 | 770,7 | 1783,8 | 1609,1 | 1438,8 | **+86,7** |
| Uzüm şərabı, min dkl | 1170,0 | 1035,0 | 1011,6 | 1080,0 | 1282,1 | **+23,9** |
| Şampan şərabı, min dkl | 27,9 | 4,5 | 0,6 | 1,1 | 29,4 | **+6,5 dəfə** |
| Viski, konyak, min dkl | 81,4 | 3,8 | 33,5 | 95,9 | 331,9 | **+87,3 dəfə** |
| Pivə, min dkl | 3771 | 4196,5 | 4707,3 | 4683,5 | 5263,3 | **+25,4** |
| Alkoqolsuz içkilər, min dkl | 19866,0 | 24884,7 | 38550,6 | 41417,5 | 48220,0 | **+93,8** |
| Siqaret və siqarlar, milyard əd. | 2,2 | 2,0 | 15,3 | 13,3 | 16,0 | **+8 dəfə** |
| Tütün, min ton | 2,0 | 1,7 | 4,3 | 4,2 | 2,3 | **+35,3** |
| Pambıq iplik, min ton | 7,6 | 9,1 | 22,5 | 14,1 | 13,0 | **+192,9** |
| Pamdıq mahlıc, min ton | 11,4 | 6,6 | 92,5 | 91,0 | 87,9 | **+42,9** |

***Mənbə:*** *Cədvəl Azərbaycanın Kənd Təsərrüfatı statistik məcmuəsi əsasında (Bakı 2024. 701 s. (s.428-429)) müəllif tərəfindən tərtib edilmişdir.*

Göründüyü kimi son illərdə pandemiya olmasına baxmayaraq emal sənayesi məhsullarının istehsal həcmində əsaslı şəkildə artım

müşahidə olunmuşdur. Qida sənayesi məhsullarının istehsalının rəqabətqabiliyyətli olduğu təqdirdə daxili və ixrac bazarlarının tələbatı əsasında daha yüksək ixrac yönümlülük vəd edir.

Emal sənayesinin səmərəli fəaliyyəti ixrac yönümlü məhsul istehsalının artırılması, kənd təsərrüfatının rəqabətqabiliyyətinin yüksəldilməsini tələb edir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün ayrılan vəsaitin təxminən 1/3-i torpaqların münbitliyinin sabit səviyyədə saxlanılmasına, az hallarda isə onun artırılmasına yönəldilmiş, geriyə qalan vəsait isə meliorasiya tədbirlərinə sərf olunmuşdur. Onu da qeyd edək ki, ildən-ilə bu sahəyə sərmayə qoyuluşunun həcminin intensiv olaraq artırılmasına baxmayaraq torpaqların münbitliyi getdikcə aşağı düşür, şoranlaşmış və eroziyaya uğramış torpaq sahələrinin həcmi artmışdır.

Eyni zamanda, taxılçılıq, üzümçülük-şərabçılıq, meyvə-tərəvəz konserv, heyvandarlıq kimi sahələrin inkişaf etdirilməsi ixrac yönümlü məhsul istehsalının artırılması üçün vacib şərtlərdəndir. Fikrimizcə, kənd təsərrüfatı inkişaf etdirilərək ixrac yönümlü məhsul istehsalını artırmaq üçün investisiyaların strukturunun təkmilləşdirilərək optimallaşdırılması əsas şərtlərdən biri olmalıdır. Bu problemin həlli üçün başlıca şərtlərdən biri investisiya qoyuluşunun səmərəli istiqamətlərini müəyyən edərək planlaşdırma mühüm əhəmiyyət kəsb edir. İnvestisiya qoyuluşunun planlaşdırılmasında qarşıya qoyulan əsas məsələlərdən biri kənd təsərrüfatı məhsullarının istehsal və emal potensialından səmərəli istifadə edərək, istehsalın və emalın kompleks və balanslaşdırılmış halda inkişafının təmini, məhsulların saxlanması, daşınması, satışının təşkili, keyfiyyətli emalı, xammal itkilərinin qarşısının alınması, məhsulların istehsalçılara vaxtında çatdırılması, ətraf mühitin qorunması məsələlərini bazar iqtisadiyyatı tələbləri əsasında yenidən qurulmasıdır. Bu baxımdan belə hesab edirik ki, istehsal potensialından səmərəli istifadə ilə kənd təsərrüfatında emalı və ixracı artırmaq üçün dövlət səviyyəsində tənzimlənən daha əhəmiyyətli məhsulların istehsalı, emalı, satışı və ayrı-ayrı məhsullar üzrə istehsalı üzrə kompleks proqram hazırlanmalı və bütün təsərrüfat formaları üzrə investisiya qoyuluşunun həcmi və istiqamətləri müəyyənləşdirilməlidir.

Dissertasiyada qeyd edilir ki, hələ də ölkənin ixrac potensialından tam və səmərəli istifadə olunmur və idxalı əvəz edə bilən məhsul istehsalına diqqət ayrılmır. Buna görə də ixrac olunan

məhsulların və xammalın ölkədə emal olunaraq dünya bazarlarına rəqabətqabiliyyətli hazır məhsul kimi ixrac olunması iqtisadi inkişafın əsas strateji istiqamətlərindən biri olmalıdır. Belə hesab edirik ki, Böyük İpək Yolunun inkişafı və eləcə də Zəngəzur dəhlizinin açılması ölkə iqtisadiyyatının inkişafı və iqtisadi fəaliyyətin səmərəliliyinə böyük təsir göstərə bilər. Belə ki, emal sənayesinin inkişafı birbaşa nəqliyyat infrastrukturunun inkişafından asılıdır.

Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərin ixtisaslaşma istiqamətləri və təsərrüfat ənənələri emal sənayesinin inkişafına da əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Eyni zamanda pambıqçılığın, tütünçülüyün, tərəvəzçiliyin, çayçılığın, quşçuluğun inkişafı və həmin sahələrdə emalın müasir texnologiyaya uyğunlaşdırılması ixrac olunan məhsulların artırılmasına imkan verə bilər. Respublikamız çox böyük xammal və əmək resursları ilə zəngin olmasına baxmayaraq xaricə çox az miqdarda kənd təsərrüfatı və emal sənayesi məhsulları ixrac edir. Məhz bu aspektdən yanaşsaq emal sənayesinin ixrac yönümlülüyünün yüksəldilməsinin iqtisadi mahiyyəti onunla izah olunur ki, bu həm ölkəyə əhəmiyyətli dərəcədə xarici valyuta daxil olmasına şərait yaradar, həm də yerli istehsalın həcminin artırılmasına səbəb olar. Ona görə də xarici investorlar ilə müştərək müəssisələr və konsorsiumlar yaradılmasına əlverişli şərait yaradılmalıdır. Bu zaman yalnız yerli müəssisələrin istehsal imkanları artmır, eyni zamanda istehsal olunmuş məhsul üçün satış kanallarının tapılması probleminin həlli də asanlaşır. Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, aqrar bazar infrastrukturunun inkişafı məsələlərinə regionlarının sosial-iqtisadi inkişafında üstünlük verilməlidir. Qeyd etmək lazımdır ki, istehsal edilən kənd təsərrüfatı məhsullarının böyük hissəsi özəl bölmənin payına düşür. Respublikamızda müasir tələblərə uyğunlaşdırılmış emal müəssisələrin sayı getdikcə artmaqdadır. Hazırda respublikada 641 qida məhsulları, 182 içki, 162 geyim, 102 toxuculuq məhsulları, 21 tütün məmulatları və 33 dəri və dəri məmulatları istehsal edən müəssisə fəaliyyət göstərir.[8]

Məlumdur ki, vaxtı ilə respublikamızdan üzüm və üzüm məhsulları şərab, süfrə üzümü, tütün, pambıq və meyvə-tərəvəz, konserv məhsulları ixrac edilirdi. İxrac hesabına ölkəmizə xeyli

---

[8] https://www.stat.gov.az/

miqdarda maddi-texniki vasitələr, külli miqdarda xarici valyuta daxil olurdu ki, bu da ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynamışdır. Fikrimizcə, buna görə də sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatında əsas hədəf bu sahələrin inkişafına yönləndirilməlidir. Bunun üçün regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramında və Strateji Yol Xəritələrində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi vacib şərtlərdən biri kimi həll edilməlidir. Dissertasiyada emal sənayesindəki və ixracın artırılmasında olan mövcud problemlər sistemləşdirilir.

Son illərdə ölkənin iqtisadi əlaqələri təkcə yaxın ölkələr ilə deyil, daha çox uzaq ölkələrlə intensiv xarakter daşımışdır. Ölkənin ticarət dövriyyəsində İtaliya, Türkiyə, İsrail, ABŞ, Çin, Rusiya, Almaniya, Gürcüstan, Ukrayna, İran dövlətləri ilə ticarət əlaqələri digər ölkələrlə müqayisədə daha çox olmuşdur. 2023-cü ildə xarici ticarət dövriyyəsinin 30,6%-i İtaliyanın, 14,9%-i Türkiyənin, 8,5%-i Rusiyanın, 6,1 %-i Çinin, 3,6%-i Almaniyanın, 2,8%-i İsrailin, 2,8%-i Hindistanın, 2,7%-i Yunanıstanın, 1,8%-i Amerika Birləşmiş Ştatlarının, 1,7%-i İspaniyanın, 1,7%-i Gürcüstanın, ixracın isə 44,9%-i İtaliyanın, 15,8%-i Türkiyənin, 4,1%-i İsrailin, 4,0%-i Yunanıstanın, 3,6%-i Hindistanın, 3,6%-i Rusiyanın, 2,7%-i Almaniyanın, 2,3%-i İspaniyanın, 2,2%-i Gürcüstanın, 2,0%-i Çexiyanın payına düşür. [9]

Araşdırmalar göstərir ki, son illərdə kənd təsərrüfatında və emal sənayesində xarici iqtisadi əlaqələrin həcmi genişlənmiş, idxal və ixracın artım dinamikası yaranmışdır.

2010-cu ilə nisbətən 2023-cü ildə aqrar sahə məhsullarının idxalının həcmi 2,34 milyard dollar yəni 163,7% artmışdır. Burada ən çox artım heyvan mənşəli məhsullarda və toxuculuq materiallarında müşahidə olunur. Müqayisə edilən dövrdə ixracın həcmi isə 523,1 milyon dollar və ya 1,8 dəfə artmışdır. Bu artım aqrar sahənin potensialından daha səmərəli istifadə edilməsi hesabına əldə edilmişdir.

2000-ci ildə idxalın strukturunda ərzaq və heyvandarlıq məhsullarının payı 2023-ci ilə nisbətən daha azdır. Fikrimizcə, təhlillərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda ixrac yönümlü aqrar məhsulların istehsalının dövlət tənzimlənməsi

[9] https://www.stat.gov.az/

mexanizminin qurulması və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

**Cədvəl 2.**

**Məhsulların ümumi istehlakında idxalın xüsusi çəkisi**

| Mal qrupları | 2005 | 2010 | 2015 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Taxıl və taxıl məhsulları, min ton, xüsusi çəkisi, %-lə | 1006,1 | 1330,0 | 1353,1 | 1148,1 | 1293,0 | 1175,3 |
| | 35,4% | 52,3% | 48,6% | 40,0% | 43,5% | 42,1% |
| Kartof, min ton, xüsusi çəkisi, %-lə | 41,9 | 65,0 | 139,2 | 226,9 | 211,8 | 186,7 |
| | 4,3% | 7,3% | 15,6% | 21,3% | 18,2% | 17,3% |
| Tərəvəz və bostan, min ton, xüsusi çəkisi, %-lə | 24,3 | 84,9 | 42,0 | 64,0 | 54,6 | 58,4 |
| | 1,7% | 7,5% | 3,7% | 4,2% | 3,5% | 3,7% |
| Meyvə və üzüm, min ton, xüsusi çəkisi, %-lə | 33,2 | 166,2 | 88,4 | 189,8 | 191,2 | 194,9 |
| | 8,7% | 21,4% | 9,6% | 15,7% | 15,6% | 16,8% |
| Ət və ət məhsulları, min ton, xüsusi çəkisi, %-lə | 37,1 | 36,0 | 17,6 | 56,9 | 61,5 | 66,8 |
| | 19,9% | 13,0% | 4,6% | 13,8% | 14,5% | 15,1% |
| Süd və süd məhsulları, min ton, xüsusi çəkisi, %-lə | 186,3 | 647,2 | 366,0 | 417,5 | 489,9 | 474,6 |
| | 13,0% | 30,1% | 15,3% | 16,0% | 18,2% | 17,6% |
| Yumurta, mln. ədəd, xüsusi çəkisi, %-lə | 17,9 | 25,7 | 5,3 | 17,3 | 1,3 | 1,3 |
| | 2,0% | 2,2% | 0,3% | 0,9% | 0,07% | 0,06% |

***Mənbə:*** *Cədvəl Azərbaycanın Kənd Təsərrüfatı statistik məcmuəsi əsasında (Bakı 2024. 701 s. (s.447-457)) müəllif tərəfindən tərtib edilmişdir.*

Göründüyü kimi son 13 ildə idxal məhsullarının quruluşunda müəyyən dəyişikliklər baş vermişdir. Ölkəmizdə emal müəssisələrinin və kənd təsərrüfatının inkişaf etdirilməsi və yeni texnologiyalara əsaslanan müəssisələrin yaradılması ilə əlaqədar 2023-cü ildə 2010-cu ilə nisbətən bəzi məhsullar idxalı azalmışdır. Buna baxmayaraq emal və ərzaq istehlakı ilə əlaqədar bəzi məhsullar ixracı artmışdır. Müqayisə edilən dövrdə kartof, təzə meyvə və tərəvəz, meyvə və tərəvəz konservləri, tütün, şərab, pambıq lifi, meyvə-tərəvəz şirələrinin ixracı xeyli artmışdır.

Tədqiqat işində ixrac yönümlü məhsulların keyfiyyətcə qiymətləndirməsi ilə yanaşı bir sıra iqtisadi göstəricilərdən istifadə etməklə kəmiyyətcə qiymətləndirilmədən də istifadə edilmişdir. Bu təhlilin aparılmasında “Excel” və “Python” proqramlarından istifadə edilmişdir. İstifadə olunan sərbəst dəyişənlərə əsas kapitala investisiyalar, İKT müəssisələri tərəfindən investisiyalar, adambaşına düşən məhsul istehsalı, emal sənayesi məhsullarının dəyəri və iqtisadiyyata kredit qoyuluşları, asılı dəyişənə isə ixrac olunan

məhsulların həcmi aid edilmişdir. Kəmiyyətcə qiymətləndirilmə zamanı 2005-2023-cü illəri əhatə edən statistik məlumatlardan istifadə edilmişdir. Kəmiyyətcə qiymətləndirmə zamanı çoxölçülü xətti reqressiya düsturundan istifadə edilmişdir:

$$Y=\beta_0+\beta_1X_1+\beta_2X_2+\beta_3X_3+\cdots+\beta_nX_n+\varepsilon$$

Burada,

Y – asılı dəyişən;

$X_1$, $X_2$…$X_n$ – sərbəst dəyişənlər;

$\beta_0$ – sabit əmsal;

$\beta_1$, $\beta_2$…$\beta_n$ – müstəqil dəyişənlərin reqressiya əmsalı;

ε – isə qalıq dəyəri bildirir.

Çoxdəyişənli reqressiya analizində əldə olunan çəkilər cədvəl 3-ə əks edilmişdir:

**Cədvəl 3.**

**Çoxdəyişənlilərin kəmiyyətcə qiymətləndirilməsi zamanı əldə edilmiş reqressiya çəkiləri**

| Dəyişən | Əmsal | Standart xəta | t-Statistik | p-Dəyəri |
|---|---|---|---|---|
| **Sabit (Intercept)** | 3.45 | 9.21 | 0.375 | 0.0414 |
| **İnvestisiyalar** | 0.9 | 1.037 | 0.932 | 0.0368 |
| **Adambaşına məhsul istehsalı** | 8.0519 | 3.494 | 2.305 | 0.038 |
| **Emal sənayesi məhsullarının dəyəri** | 0.0484 | 2.495 | 0.019 | 0.0485 |
| **Kredit qoyuluşları** | 0.6038 | 0.714 | 0.846 | 0.0413 |
| **İKT investisiyaları** | 4.339 | 0.431 | 0.288 | 0.0378 |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən hesablamalar nəticəsində tərtib edilmişdir.*

Cədvəldən də aydın görünür ki, müstəqil dəyişənlər 0 olduğu halda asılı dəyişən 3.45-ə bərabər olacaqdır. İnvestisiyalın 1 vahid artımı asılı dəyişəndə orta hesabla 0.9 vahid, müvafiq olaraq adambaşına məhsul istehsalında 8.0519 vahid, emal sənayesi məhsullarının dəyərinin 0.0484 vahid, kredit qoyuluşları 0.6038 vahid və İKT investisiyalarının 4.339 vahid artıma səbəb olur. P-Dəyərinin bu göstəricilər üzrə 0.05-dən kiçik olması bu göstəricilərin statistik əhəmiyyətli olduğunu bildirir.

Reqressiya təhlilində əldə olunan determinasiya əmsalı (R-squared) 0.656-a bərabər olmuşdur. Bu o deməkdir ki, modeldə istifadə olunan sərbəst dəyişənlər ixrac olunan məhsulların həcminin təxminən 65.6%-ni izah edir. P-dəyərlərinin <0.05 ifadəsini alması verilənlərin statistik cəhətdən əhəmiyyətliliyini göstərir.

İndi isə ixrac olunan məhsulların həcmi ilə sərbəst dəyişənlər arasında ayrı-ayrılıqda (ikidəyişənli olaraq) reqressiya təhlilini aparaq:




**Qrafik 1. Azərbaycan Respublikasında ixrac olunan məhsullarla digər müstəqil dəyişənlər arasında əlaqə**

***Mənbə:*** *Qrafik müəllif tərəfindən "Python" proqramı vasitəsilə hesablanaraq tərtib edilmişdir.*

Determinasiya əmsalı əsas kapitala yatırılan investisiyalar və ixrac arasında $R^2$=0.112-ə, adambaşına düşən məhsul istehsalı və ixrac arasında $R^2$=0.52-yə, emal sənayesi məhsullarının dəyəri və ixrac arasında $R^2$=0.48-ə, iqtisadiyyata kredit qoyuluşları və ixrac arasında $R^2$=0.112-ə, İKT investisiyaları və ixrac arasında isə $R^2$=0.137-ə bərabərdir. Bu o deməkdir ki, müstəqil dəyişənlərin asılı dəyişəndə yaratdığı təsir müvafiq olaraq 11,2%, 52%, 48%, 11,2% və 13,7% təşkil edir. Buradan belə bir nəticə çıxır ki, istifadə etdiyimiz göstəricilər üzrə ən güclü əlaqə adambaşına düşən məhsul istehsalına ($R^2$=0.52) ən zəif əlaqə isə kredit qoyuluşlarına ($R^2$=0.112) düşür. Alınan nəticələr bizə onu deməyə imkan verir ki, ixracın artırılması üçün emal sənayesinin və adambaşına düşən məhsul istehsalının inkişafına xüsusi diqqət yetirilməlidir. İKT sektoru üzrə strategiyalar isə yenidən nəzərdən keçirilməlidir.

Dissertasiya işinin **III fəsli "Emal müəssisələrində ixrac yönümlü istehsalın artırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi"** adlanır. Burada emal müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılmasında investisiya, maliyyə-kredit və qiymət mexanizminin təkmilləşdirilməsi məsələləri tədqiq olunur. Dissertasiyada qeyd edilir ki, emal sənayesinin ixrac yönümlülüyünün artırılması bu sahədə fəaliyyət göstərən müəssisələrin modernləşdirilməsinə investisiya qoyuşlarının həcminin yüksəldilməsindən bilavasitə asılıdır. Müasir şəraitdə emal müəssisələrinin formalaşdırılmasının başlıca investisiya mənbəyi kimi ipoteka kreditlərinin müxtəlif formalarından istifadə edilməsi mühüm əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsulları istehsal və ya emal edən müəssisələr ipoteka şərtləri ilə böyük həcmdə vəsait əldə etmək imkanına malikdir və bu da uzun müddətli xarakter daşıya bilir. Müəllifin fikrincə, lizinq fəaliyyətinin genişləndirilməsi emal müəssisələrinin maliyyə ehtiyatlarının məhdud olmasını nəzərə almaqla səmərəli geniş təkrar istehsalın reallaşdırılmasına imkan verən mühüm məqamlardan biri hesab edilə bilər. Belə investisiyalaşma nəticəsində ölkəyə idxal edilən emal məhsullarının həcmini məhdudlaşdırmaqla idxalı əvəzetmə siyasətini həyata keçirmək və eləcə də xarici bazarlara yüksək keyfiyyətli emal sənayesi məhsulları ixrac etmək mümkündür.

Emal sənayesi müəssisələrinin ixrac yönümlülüyünün yüksəldilməsinin prioritet istiqamətlərindən biri də maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi hesab olunur. Qeyd edilir ki, dövlət müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş, kənd təsərrüfatı əmtəə istehsalına büdcə subsiyadalarının verilməsi təmin edilmişdir. Bundan əlavə kənd təsərrüfatı əmtəə istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmişdir. Lakin, bütün bunlara baxmayaraq emal sənayesi müəssisələrinə büdcə subsidiyaları vasitəsilə dövlət dəstəyinin verilməsi halları müşahidə edilməmişdir. Hesab etmək olar ki, emal sənayesi müəssisələrinə zəruri büdcə subsidiyalarının verilməsi və eləcə də ixrac kreditləri və ixrac subsidiyaları vasitəsilə emal müəssisələrinin dəstəklənməsi qısa zaman kəsiyində onların ixrac yönümlülüyünün artırılmasına əlverişli şərait yara bilər.

Dissertasiyda əmtəəlik məhsul istehsalçılarına yönəldilən investisiyalar milli, xarici valyuta, əşya və natural formada, həm də qarışıq formada olmaqla yönəldilməsi, əhalinin vəsaitlərindən maliyyələşmə mənbəyi kimi istifadə edilməsi, investisya mühitinin formalaşdırılması, investisiyaların səmərəliliyinin artırılması istiqamətləri əsaslandırılmışdır.

Dissertasiyada göstərilir ki, ixrac yönümlü məhsul istehsalının artırılmasında və emal sənayesi müəssisələrinin ixrac yönümlüyünün yüksəldilməsində iqtisadi mexanizmin mühüm tərkib hissəsi kimi qiymət mexanizminin təkmilləşdirilməsi də əhəmiyyətli rol oynayır. Qeyd edilir ki, kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalı və ixracının inkişafı və bu sahənin fasiləsiz inkişafının təmin olunması baxımından məqsədli qiymətlər böyük əhəmiyyət kəsb edir. Bu qiymətlər məhsul istehsalçılarının xərclərinin normativ baxımından, həmçinin regionlarda əmək haqqının orta səviyyəsi baxımından ödənilməsinə imkan yaradır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının inkişafı baxımından respublikamızda məqsədli qiymətlərin bu funksiyalarından demək olar ki, istifadə olunmur. Göstərilir ki, qeyd olunanlar kənd təsərrüfatının mövcud problemlərinin həll olunmasında əhəmiyyətli təsir imkanı ola bilər. Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə məsələn ABŞ-da,

Kanadada, həmçinin Avropa Birliyi ölkələrində məqsədli qiymətlərdən istifadə olunur. Bu məqsədli qiymətlərin səviyyəsi kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının rentabelliyinin təmin olunmasına əlverişli imkan yaradır. İnkişaf etmiş ölkələrdə tədarük qiymətləri emal sənayesinin inkişafında da əhəmiyyətli rola malikdir.

Dissertasiyada kənd təsərrüfatı ilə emal məhsulları və sənayenin kənd təsərrüfatına satdığı maddi-texniki, texnoloji məhsullar arasında kəskin qiymət fərqlərinin olması, bu qiymət ekvivalentliyinin təmin olunması üçün dəstək mexanizmlərinin (dotasiya, subsidiya, yardım və s.) yaradılması təklif olunur. İxrac yönümlü istehsalın stimullaşdırılması və qiymətəmələgəlmə mexanizminin təkmilləşdirilməsi, dolayı təsir vasitələrindən istifadə istiqamətləri əsaslandırılır.

## NƏTİCƏ

Dissertasiya mövzusu üzrə apardığımız nəzəri ümumiləşmələr və araşdırmaları aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- kənd təsərrüfatı və emal müəssisələrinin zəif maliyyə imkanları müasir texnologiya və avadanlıqların alınmasını çətinləşdirir, bu da istehsal potensialından səmərəli istifadəyə mənfi təsir göstərir,
- kənd təsərrüfatı və emal sənayesində istehsalın, rəqabət və ixrac qabiliyyətinin artırılması üçün aqrotexniki və emal texnologiyalarının beynəlxalq standartlara uyğunlaşdırılması vacibdir. Bunun üçün əsas fondların yenidən qurulması prioritet məsələlərdən sayılmalıdır,
- çoxdəyişənlilər arasında aparılan asılılıq əlaqəsinə əsasən belə qənaətə gəlirik ki, ixracın artırılması üçün emal sənayesinin və adambaşına düşən məhsul istehsalının inkişafına xüsusi diqqət yetirilməlidir. İKT sektoru üzrə strategiyalar isə yenidən nəzərdən keçirilməsi məqsədəuyğundur,
- aqrar sektorun və ixrac yönümlü emal sənayesinin inkişafı və potensialından səmərəli istifadə üçün elmi-texniki tərəqqinin və yeni texnologiyaların tətbiqi vacib hesab edilir. İnkişaf etmiş ölkələrdə

iqtisadi artım elmə əsaslansa da, ölkəmizdə elmə ayrılan vəsaitin ÜDM-in 1%-dən az olması bu inkişafı məhdudlaşdırır,

- kənd təsərrüfatı istehsalı, emalı və ixracının stimullaşdırma mexanizmləri istehsal, emal və ixracın artımına yetərincə təkan vermir və bazar iqtisadiyyatının tələblərindən geri qalır. Bu sahələrin inkişafı üçün stimullaşdırma mexanizmləri bazar prinsipləri əsasında yenilənməsinə ehtiyac duyulur,

- son illər dövlət kənd təsərrüfatı və emal sənayesinin inkişafını sürətləndirmək üçün mühüm tədbirlər həyata keçirir. “Strateji Yol Xəritələri” (2016) və “Azərbaycan 2030: Milli Prioritetlər” (2021) sənədləri bu sahənin rəqabət qabiliyyətinin artırılmasında strateji rola malikdir,

- kənd təsərrüfatı və emal sənayesinin inkişafı kompleks texniki-texnoloji sistemin formalaşdırılmasını tələb edir ki, bu da maşınqayırma sənayesinin rolunu artırır. Bu sistemin tətbiqi mövcud strukturlarda keyfiyyət dəyişikliklərini və istehsal vasitələri təminatında islahatların həyata keçirilməsini zəruri edir.

Tədqiqat nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrində ixrac yönümlü məhsul istehsalının artırılması istiqamətində bir sıra problemlər mövcuddur. Bu problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Xammal təminatının qeyri-stabil olması**: yerli xammal ehtiyatları bəzən tələbatı ödəyə bilmir və xaricdən idxal tələb olunur. Bu isə məhsulların maya dəyərinin artmasına səbəb olur.

2. **Texnoloji avadanlıqların köhnəlməsi:** bir çox emal müəssisələrində istehsal prosesində köhnə və səmərəsiz texnologiyalardan istifadə edilir ki, bu da məhsulun keyfiyyətinə və rəqabət qabiliyyətinə təsir edir.

3. **Maliyyə resurslarına çıxış çətinliyi**: emal müəssisələri güzəştli kreditlərə və digər maliyyə mənbələrinə məhdud çıxış imkanlarına malikdirlər ki, bu da onların istehsal gücünün artırılmasına mane olur.

4. **Logistika və nəqliyyat problemləri**: ixrac üçün keyfiyyətli logistika və nəqliyyat infrastrukturu vacibdir. Ancaq bəzi bölgələrdə bu imkanlar məhduddur və nəqliyyat xərcləri hələ yüksəkdir.

5. **Beynəlxalq sertifikatlaşma və keyfiyyət standartları problemləri**: ixrac bazarlarında məhsulların qəbul olunması üçün beynəlxalq sertifikatlar tələb olunur. Lakin, bir çox emal müəssisələri bu sertifikatları almaqda çətinlik çəkir.

6. Kənd təsərrüfatı və emal müəssisələrində **kadr çatışmazlığı**: peşəkar mütəxəssislərin, texnoloqların və mühəndislərin çatışmazlığı istehsal prosesinin inkişafını ləngidir.

7. **Dövlət dəstəyi və güzəştlərin məhdudluğu**: ixracyönümlü məhsul istehsalını təşviq edən iqtisadi mexanizmlər, xüsusən kreditləşmə, vergi güzəştləri və dövlət dəstəyi mexanizmləri hələ də tam səmərəli təsir vasitəsinə çevrilməmişdir.

8. **İnnovasiya və AR-GE (tədqiqat və inkişaf) fəaliyyətlərinin zəif olması:** yeni məhsulların və texnologiyaların hazırlanması üçün innovasiyayönümlü investisiyalar hazırki tələbatdan geri qalır ki, bunun da rəqabətqabiliyyətinin yüksəldilməsinə təsiri zəifdir.

9. **Rəqabət mühiti və daxili bazar məhdudiyyətləri**: daxili bazarda bəzi iri şirkətlərin dominantlığı kiçik və orta müəssisələrin ixrac fəaliyyətini genişləndirməsinə mane olur.

10. **İxrac bazarlarında təbliğat və brendləşmə zəifliyi**: Azərbaycan məhsulları beynəlxalq bazarlarda kifayət qədər tanınmır. Bu səbəbdən, məhsulların tanıtımı və marketinqi istiqamətində daha çox strategiya və investisiya siyasətinə ehtiyac duyulur.

Dissertasiya işində əldə etdiyimiz nəticələr üzrə irəli sürülən təklifləri aşağıdakı kimi təsnifləşdirə bilərik:

1. Qloballaşmanın müasir çağırışları zəmnində emal sənayesinin inkişafı iqtisadi təhlükəsizliyi təmin etmək, yerli əmtəə istehsalçılarının gəlirlərinin yüksəldilməsi baxımından strateji əhəmiyyət kəsb edir. İxrac yönümlülüyün artması idxalı azaldır, istehsalın modernləşməsi isə xarici bazarlara yüksək keyfiyyətli emal məhsulları ixracını mümkün edir, bu isə dövlət büdcəsinin gəlirlərinin artmasına töhfə verə bilər.

2. İxrac yönümlü emal müəssisələrinin yenilənməsi davamlılıq tələb edən bir prosesdir və bu zərurət sosial-iqtisadi inkişaf tələbindən irəli gəlir. Yeni müəssisələrdə mükəmməl istehsal mexanizmi qurmaq çətindir, xüsusən meyvə-tərəvəz istehsal edən

mövsümi müəssisələrdə təzadlar mövcuddur. Emal müəssisələrinin yenilənməsi zamanı yerli xüsusiyyətlər nəzərə alınmaqla istehsal metodlarının və avadanlıqların təkmilləşdirilməsi, daşınma sürətinin artırılması, anbarlaşdırma, enerji və bina izolyasiyasına diqqət artırılmalıdır. Həmçinin, ətraf mühitin qorunması və təsirli idarəetmə ilə işçi qabiliyyətləri daim nəzərdən keçirilməlidir.

3. Kənd təsərrüfatı məhsullarının bir çoxu emal edilmədən və ya sonadək emal edilmədən xammal kimi ixrac olunur. Təhlillər göstərir ki, uzun illər pambığın, tütünün, şərabın, yunun və bir sıra kənd təsərrüfatı məhsulları ilkin emalından sonra xammal kimi xarici ölkələrə və xüsusilə də Türkiyə və Rusiya müəssisələrinə göndərilmişdir. Qeyd etmək lazımdır ki, ölkəmizdə istehsal olunan bir çox məhsulları emal edərək hazır məhsul kimi ixrac etmək mümkündür. Bu məqsədlə meyvə-tərəvəz, konserv, pambıq, şərab və çay emalı zavodlarının və s. ixrac yönümlülüyünün yüksəldilməsinə təsir edən amil kimi onların modernləşdirilməsi zəruri hesab edilir. Bu müəssisələrə daxili və xarici investisiyaların yönəldilməsi yolu ilə yeni texnologiya əsasında inkişafına böyük ehtiyac vardır. Hazırda ölkəmizdə beynəlxalq standartların tələblərinə cavab verən meyvə-tərəvəz konservi, şərab, süd və ət məhsulları istehsal edilməsinə baxmayaraq, potensialdan hələ də tam istifadə edilmir.

4. SOCAR-ın Karbamid zavodu ölkənin ən ciddi gübrə istehsalçılarındandır. Onun əsas xammalını təbii qaz təşkil edir. Zavodun istehsalının xammal təchizatı üçün uzunmüddətli müqavilələr bağlanmalı, alternativ qaz mənbələri araşdırılmalı və bu sahədə ixtisaslı kadrların yetişdirilməsi üçün universitetlər və zavod arasında əməkdaşlıq genişləndirilməlidir.

5. Tədqiqatlardan və beynəlxalq təcrübədən göründüyü kimi, bazar iqtisadiyyatı münasibətləri mühitində kənd təsərrüfatında səmərəli fəaliyyət bir sıra amillərdən: istehsalın yerləşdirilməsi və ixtisaslaşdırılması, istehsal və emal potensialından istifadə üçün onların struktur bölmələri arasında əlaqələrin yaradılması, potensialdan səmərəli istifadə mexanizmlərinin hazırlanması, səmərəli və optimal sahə strukturlarının təşkili, innovativ texnologiyanın və elmi-texniki tərəqqinin və s. tətbiqindən bilavasitə asılıdır. Fikrimizcə sərgilər və biznes forumların təşkili qeyd olunan

məsələlərin həllini sürətləndirə bilər. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında mühüm məsələlərdən biri də regionların xüsusiyyətlərini nəzərə almaqla maliyyə-kredit, qiymət, investisiya və digər iqtisadi mexanizmlərin istehsal və emal potensialından səmərəli istifadəyə yönəldilməsi olmalıdır.

6. Kənd təsərrüfatı məhsullarının keyfiyyətini, rəqabət qabiliyyətini, emalını və ixracını stimullaşdırmaq və artırmaq üçün məqsədli proqram hazırlanması və kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

7. Mövcud vəziyyətin təhlili göstərir ki, emal sənayesinin əsas məqsədi kənd təsərrüfatı xammalının innovativ texnologiyalarla, dünya standartlarına uyğun emalını, beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılmasını və yarımfabrikat-hazır məhsul istehsalının genişləndirilməsini təmin etməkdir. Üzümçülük sahəsində şərab, konyak, sirkə və digər məhsulların istehsalının artırılması üçün yeni texnologiyalar tətbiq edilməli, emal müəssisələri və infrastruktur təkmilləşdirilməlidir. Konserv sənayesi isə əhalinin meyvə-tərəvəz tələbatını ödəmək və istehsal-emal balansını optimallaşdırmaq istiqamətində fəaliyyət göstərməsi məqsədə uyğun olardı.

8. Emal müəssisələrinin inkişafı investisiyaların cəlb olunması ilə rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılmasına bağlıdır. Kənd təsərrüfatında investisiya mərhələli həyata keçirilməli, mövcud problemlər ön planda saxlanmalıdır. Stimullaşdırma üçün əsas istiqamətlərə aqrar sahəyə maliyyə resurslarının yönəldilməsi, aqrar bazar infrastrukturunun gücləndirilməsi, investisiya layihələrinin dəstəklənməsi, ixrac yönümlü istehsalın təşviqi və investorlar üçün bərabər imkanların və əlverişli şəraitin yaradılması aid edilə bilər.

9. Müasir dövrdə qlobal bazarlarda rəqabət üstünlüyü qazanmaq üçün yüksək texnologiyalı avadanlıqlara investisiya ayrılması tələbatdan irəli gəlir. Xüsusilə, mövcud emal sənayesində keyfiyyətli, standartlara cavab verən və ixrac bazarlarına uyğun məhsul istehsal edə bilmək üçün yeni texnologiyaların tətbiqi vacib hesab edilir.

10. İxrac bazarında uğurlu fəaliyyət göstərmək üçün əsas şərtlərdən biri məhsulun beynəlxalq keyfiyyət və təhlükəsizlik

standartlarına cavab verməsidir. Sertifikatlaşdırılmış və beynəlxalq keyfiyyət tələblərinə uyğun istehsal edilən məhsullar qlobal bazarda daha çox etibar qazanır, ixrac imkanlarını artırır və daha yüksək dəyər qazanmağa imkan yaradır. İxrac bazarlarında uğurlu fəaliyyət göstərə bilmək üçün məhsulların **ISO 22000 (Qida Təhlükəsizliyi İdarəetmə Sistemi), HACCP (Təhlükəsiz Qida Təhlükələrinə Nəzarət) və digər beynəlxalq qida standartlarına** cavab verməsi vacib hesab edilir.

11. İxrac prosedurlarının sadələşdirilməsi emal müəssisələrinin beynəlxalq bazarlara daha asan çıxışını təmin etməklə onların **rəqabət qabiliyyətini artırır, ixracın həcmini genişləndirir və milli iqtisadiyyata müsbət təsir göstərir.** Gömrük rüsumlarının və lisenziyalaşdırma proseslərinin optimallaşdırılması həm sahibkarların xərclərini azaldır, həm də emal sektorunun qlobal ticarətdə iştirakını gücləndirir. Dünya Bankının "Ticarət Asanlaşdırma İndeksi" üzrə aparılan araşdırmalar göstərir ki, **ixrac prosedurlarının optimallaşdırılması nəticəsində beynəlxalq ticarət dövriyyəsi orta hesabla 15-20% artır**.

12. İnvestisiya və maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi ixrac potensialı yüksək olan emal müəssisələrinin inkişafını sürətləndirə bilər. Bunun üçün ixrac yönümlü məhsullara vergi güzəştləri, güzəştli kredit mexanizmi, texnologiya modernləşməsi üçün dövlət dəstəyi və ixrac prosedurlarının sadələşdirilməsi vacibdir. Eyni zamanda, investisiyaların artırılması məqsədilə beynəlxalq investisiya forumlarının keçirilməsi, dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin genişləndirilməsi və ixrac bazarlarının diversifikasiyası üçün hüquqi islahatların aparılması vacibdir.

13. Emal müəssisələri üçün ən vacib problemlərdən biri də kapital və maliyyə resurslarının məhdud olmasıdır. Xarici və yerli investorlar tərəfindən qoyulan sərmayələr bu çatışmazlığı aradan qaldıra bilər. Dünya Bankının hesabatına görə, inkişaf etməkdə olan ölkələrdə real sektorun inkişafı üçün birbaşa xarici investisiyaların (FDI) rolu əhəmiyyətlidir və bu, illik ÜDM artımına 2-3% müsbət təsir etmək imkanına malikdir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Bağırzadə, Ə.G. Qeyri-neft sektorunda ixrac potensialının tənzimlənməsi istiqamətləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans, – Bakı: 04-05 may, – 2017. – s. 506-511.

2. Bağırzadə, Ə.G. Azərbaycan Respublikasında aqrar sektorun davamlı inkişafının hüquqi təminatının təkmilləşdirilməsi // "Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, – Bakı: 12 oktyabr, – 2017. – s. 199-205.

3. Bağırzadə, Ə.G. Emal və xidmət işinin təşkilində şəhər bələdiyyələrinin idarəedilməsinin təkmilləşdirməsi // – Bakı: Audit, – 2017. № 4. – s. 97-103.

4. Bağırzadə, Ə.G. Azərbaycanda sosial-iqtisadi inkişaf siyasəti və idxal-ixrac əməliyyatlarının prioritetləri // i.e.d., prof. İ.H.İbrahimovun yubileyinə həsr olunmuş "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri" mövzusunda respublika elmi-praktiki konfransı, – Bakı: 26 yanvar, – 2018. – s. 458-468.

5. Bağırzadə, Ə.G. Ölkənin ixrac potensialının artırılması istiqamətləri. // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş Gənc tədqiqatçıların I respublika elmi-praktiki konfrans, – Bakı: 05 mart, – 2018. – s. 64-65.

6. Bağırzadə, Ə.G. İxrac yönümlü məhsul istehsalının inkişaf meylləri // "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri" mövzusunda beynəlxalq konfrans, – Bakı: 3 may, – 2018. – s. 443-448.

7. Bağırzadə, Ə.G. İxrac potensialının formalaşdırılması və gücləndirilməsi istiqamətində dövlət siyasətinin təkmilləşdirilməsi istiqamətləri // "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq konfrans, – Bakı: 6 may, – 2021. – s. 298-303.

8. Bağırzadə, Ə.G. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, emalı və ixracının formalaşdırılmasının əsas istiqamətləri // – Bakı: Kooperasiya elmi-parktiki jurnal, 2021. № 4, – s. 204-211.

9. Bagirzadeh, A.G. Directions for improving state policy to form and strengthen the export potential of agricultural products. // – Украина: Экономический вестник Донбасса, – 2021. № 4, – p. 19-24.

10. Bağırzadə, Ə.G. Emal məhsullarının ixracının mövcud vəziyyəti və ixracın artırılması istiqamətləri // – Bakı: Audit, – 2021. № 4, – s. 110-123.

11. Bagirzadeh, A.G. Directions for improving state policy to form the export potential. // Scientific Research and Innovation: Proceedings of the 1st International Scientific and Practical Internet Conference, – Dnipro, Ukraine: April 7-8, 2022. – p. 35-41.

12. Bağırzadə, Ə.G. Emal sənayesinə investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans, – Bakı: 4 may, – 2022. – s. 434-439.

13. Bağırzadə, Ə.G. Əmtəəlik və rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması istiqamətləri // – Bakı: Kooperasiya elmi-parktiki jurnal, – 2022. № 3, – s. 68-76.



Dissertasiyanın müdafiəsi "04" iyun 2025-ci il tarixində saat 13:00-da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (https://economics.org.az/).

Avtoreferat 23 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.04.2025
Kağızın formatı: A5
Həcm: 43865 işarə
Tiraj: 100